## *MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ*

UOT 37.0

***Rəqsanə Nazim qızı Qədimli***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*

# DİLİMİZ – MİLLİ-MƏNƏVİ DƏYƏRİMİZDİR

***Раксана Назим гызы Гедимли***
*докторант по программе доктора философии*
*Бакинский Государственный Университет*

# НАШ ЯЗЫК – НАША НАЦИОНАЛЬНО-НРАВСТВЕННАЯ ЦЕННОСТЬ

***Raksana Nazim Gedimli***
*doctorial student in the program of doctor of philosophy*
*Baku State University*

# OUR LANGUAGE IS OUR NATIONAL SPIRITUAL VALUE

**Xülasə.** Milli- mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil Azərbaycan Respublikasının mədəniyyət, təhsil siyasətinin əsas vəzifələrindən biridir. Bu mənada yetişən gənc nəslimiz yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın mədəni-tarixi irisni, mənəvi mədəniyyətini, qəhrəmanlarını, böyük şəxsiyyətlərini, tarixi abidələrini, adət və ənənələrini, dilimizı, dinimizi, mədəni sərvətlərimizi, ədəbiyyatımızı dərindən öyrənməlidir.
***Açar sözlər**: Azərbaycan dili, mənəvi dəyərlər, vətənpərvərlik*

**Резюме.** Сохранение и развитие наших национальных и духовных ценностей - одна из главных задач культурной и образовательной политики независимой Азербайджанской Республики. В этом смысле наше молодое поколение должно изучать культурно-исторические наследие народа, духовную культуру, героев, великих личностей народа, также исторические памятники, обычаи и традиции, язык, религию, культурное наследие и литературу нашего народа в соответствии с новыми историческими условиями и современностью требования.
***Ключевые слова**: азербайджанский язык, духовные ценности, патриотизм.*

**Summary**. The preservation and development of our national and spiritual values is one of the main tasks of the cultural and educational policy of the independent Republic of Azerbaijan. In this sense, our young generation should study the cultural and historical heritage of the people, spiritual culture, heroes, great personalities of the people, as well as historical monuments, customs and traditions, language, religion, cultural heritage and literature of our people in accordance with the new historical conditions and modernity of the requirements .
***Key words:** Azerbaijani language, spiritual values, patriotism.*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Gənclərinin Birinci Ümumrespublika Forumundakı nitqində demişdir: *“Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli- mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz” (1).* Ulu öndərimizin müdrik fikirlərindən irəli gələrək, yetişməkdə olan gənc nəslin milli-mənəvi ruhda, mənəvi

mədəniyyət əsasında tərbiyəsi bu gün təhsilimiz qarşısında duran ən vacib məsələlərdən biridir.

Milli-mənəvi dəyərlərimizdən biri dilimiz – Azərbaycan dili və deyə bilərik ki, milli mənəvi dəyərlərimizn ən başlıcası və ən birincisi hesab olunur. Azərbaycan dili bizim ana dilimizdir. Ana dilimizin inkişafında misilsiz rol oynayan, bu dilin dünya miqyasına çıxması üçün əlindən gələni edən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: *"Ana dilimiz bizim sərvətimizdir. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil böyük bir aləmdir. Hər bir xalq öz dili ilə yaranır, ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur... Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir"(2,24)".* Ulu öndər xalqın dilini onun mənəvi sərvəti, mərdliyi, mübarizliyi, əyilməzliyi ilə bağlayır və deyirdi:

***"İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir.. Hər bir gənc öz ana dilini Azərbaycan dilini, ən incəliklərinə qədər bilməli və bu dildən istifadə etməlidir" (3, 30).***

Bütün sahələrdə olduğu kimi, ana dilimizin inkişafında, onun dövlət dili olaraq yüksək pilləyə qaldırılmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Heydər Əliyev ana dili ilə bağlı dövlət siyasətinin təməlini ölkəmizin müstəqilliyinin elə ilk günlərindən qoymuşdur.

Dil xalqın tarixini özündə yaşadan bir vasitə olmaqla, həm də hər bir xalqı, milləti başqalarından fərqləndirən ən başlıca amildir. Azərbaycan dili də özünəməxsus zənginliyi ilə başqa dillərdən seçilir. Xalqımız əsrlər boyu ana dilimizin saflığını qoruyaraq bu dildə zəngin ədəbi nümunələr yaratmışdır.

Milli Liderimiz Azərbaycan dilinin inkişafı ilə əlaqədar müntəzəm olaraq fərman və sərəncamlar imzalamışdır. Ulu öndərimizin apardığı məqsədyönlü və düşünülmüş siyasətin nəticəsidir ki, 1995-ci ildə ilk milli Konstitusiyamıza Azərbaycan dili dövlət dili kimi daxil edilmişdir. 2001-ci ilin iyul ayında dahi rəhbər Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" haqqında fərman imzalamış, daha sonra isə 2001-ci ildə imzaladığı fərmana əsasən, avqustun 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi təsis olunmuşdur. Azərbaycan dilinin beynəlxalq aləmdə nüfuz qazanması dilimizi ən mükəmməl formada təqdim etməyi bacaran Heydər Əliyevin adı ilə bağlıdır.

Bu gün əsası Ulu Öndər tərəfindən qoyulan Ana dilinin inkişafına və qorunmasına yönəlik Dövlət Srategiyasını ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Azərbaycan dili tarixi həqiqətlərimizin dünyaya çatdırılmasında yüksək tribunalardan səslənir, xarici müxbirlərə, siayəsətçilərə doğma ana dilimzilə bərabər bir neçə dildə müsahibələr verir, diplomatik söhbətlər aparır. Prezident İlham Əliyev dilimizə, milli adət-ənənələrimizə, mənəvi dəyərlərimizin təbliğinə, qədim tarixə malik mədəniyyətimizin tanıdılmasına daim böyük həssaslıqla yanaşır. Dövlət başçımızın 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı (4) Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində çox mühüm addımdır. Ana dilimiz – Ana vətənimzidir. Dilimizi qorumaq Vətənimizi qorumaq deməkdir. Yetişən gənc nəslin ana vətənə sevgisi ana dilimzə olan sevgidən başalayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə demişdir: *"Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm. Mən görürəm ki, yeni, müasir nəsil yetişir. Müstəqillik dövründə doğulmuş və ya formalaşmış nəsil yetişir. Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək. Ölkəmizin müstəqilliyi, firavanlığı onlardan asılı olacaq. Onlar milli maraqları bizim qədər,*

*heç nəyə baxmadan müdafiə etməlidir. Heç bir təzyiqə, hədə-qorxuya, əsassız ittihamlara baxmayaraq, Vətən məhəbbəti və milli dəyərlər onlar üçün hər şeydən üstün olmalıdır..."(5).*

Millətini, milliliyini, zamanın keşməkeşlərindən, sınaqlarından üzüağ çıxan qədimliyini və tarixini yüksək dəyərləndirən Heydər Əliyev ana dilimizlə bağlı bu fikirləri səsləndirib: *"Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik"(6,38).* Ulu öndərin bu fikirləri dilimizə verilən yüksək qiymətin təzahürüdür.

Bu gün milli sərvətimiz, varlığımızın və bütövlüyümüzün təcəssümü, təsdiqi olan ana dilimizi qorumaq, bütün gözəllikləri və incəlikləri ilə bu günün şagirdlərinə tədris edib, gələcək nəsillərin təməlini möhkəm qoymaq fədakar müəllimlərimizin əməyindən çox asılıdır. Şagirdlərimizin gözəl ünsiyyət mədəniyyətinə malik olmçası, bu sahədə imkanları genişləndirmək, onlarda nitq fəaliyyətinin növləri ilə yanaşı, düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırmaq bütün təhsil işçilərinin öhdəsinə düşən ən vacib məsələlərdir. Bu gün dilin incəlikləri, zənginliyi, məna gözəlliyi müasir tədris proqramları vasitəsilə şagirdlərə ötürülür

Bu baxımdan milli sərvətimiz olan ana dilimizin saflığını daim qorumalı, onu körpəlikdən uşaqlara sevdirməli, saf və təmiz öyrətməliyik. Uşağın təlim və tərbiyəsinin mahiyyəti, onun ağlının, məntiqi təfəkkürünün inkişafı, şəxsiyyətinin formalaşması ana dilinə necə yiyələnməsindən asılıdır.

Ən kiçik vaxtlardan başlayaraq uşaqlarda ana dilinə sevgi və məhəbbət tərbiyə edilməlidir. Onlar bilməlidirlər ki, Azərbaycan dili dünyada ən gözəl dillərdən biridir. "Dilə yiyələnmə prosesinə isə ilk növbədə ailədən başlanılır, ananın dilindən başalanılır. Cəlil Məmmədquluzadə "Anamın kitabı" əsərində dilimzin saflığı, təmizliyi uğrunda mübarizə aparan ananın çox qiymətli obrazını yaratmışdır ki, bundan nümunə götürülməlidir"(7, 181). Uşaq məktəbə gələnədək ana dilinin köməyi ilə ətraf aləm haqqında müəyyən təsəvvürlər əldə edir. Bu təsəvvürlər isə onun lüğət ehtiyatını zənginləşdirir, dəqiqləşdirir, əşya və hadisələr haqqında fikirlərini formalaşdırır. Dilin köməyi ilə o, başqalarının dediklərini anlayır. Məktəbdə isə həmin iş sistemli, mütəşəkkil davam etdirilir.

Azərbaycan dili ümumtəhsil məktəblərində tədris olunmaqla şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Şagirdlər bu fənnin vasitəsi ilə milli mədəni sərvətimiz kimi ana dilini öyrənir, onun səs sisteminə, lüğət ehtiyatına, üslubi-qrammatik xüsusiyyətlərinə yaxından bələd olur, elmi, bədii, publisistik və digər üslublarda yaradılmış ədəbiyyat nümunələri ilə tanış olmaq imkanı qazanırlar. Eyni zamanda bu dildən istifadə edərək öyrənəcəkləri digər fənlərin daha yaxşı mənimsənilmə potensialını genişləndirir, bu dildə fikirlərini izah edir, bu dildə fikirləşirlər.

Azərbaycan dilinin tədrisi tədris fənlərinin əsasıdır. Azərbaycan dilinə yiyələnmək digər fənlərin mənimsənilməsində də mühüm rola malikdir. Bu fənn müəyyən mənada *inteqrativ* fən hesab edilir. Azərbaycan dili özünün ilk mərhələsində hələ ədəbiyyat, botanika, zoologiya, coğrafiya, astronomiya, fizika, kimya, tarix və s. fənlərin xüsusi mövqe tapmadığı dövrdə onları da əvəz etmişdir.

Azərbaycan dili üzrə aparılan tədris və təlim işləri ilə yanaşı, şagirdlərdə milli-mənəvi dəyərlər əsasında tərbiyəsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dili – ana dili – Vətən dili anlayışları eyni məna kəsb edir. Bu mənada ana dilini qorumaq vətəni qorumaqdır, ananı qorumaqdır. Ana dilinin köməyi ilə şagirdlərdə doğma vətənimizə, yurdumuzun azadlığı uğrunda çarpışan mübarizlərə, əmək adamlarına məhəbbət, xalqımızın adət və ənənələrinə, haqqa, ədalətə hörmət və sədaqət tərbiyə edilir. Bu fənnin tədrisi prosesində kollektivçilik, yoldaşlıq və dostluq hissləri, quruculuq işində fəal iştirak etmək meyli, vətənə, onun dilinə sevgi və məhəbbət hissləri tərbiyə olunur. Dilimizin zənginləşməsində və bu əsasda mənəvi dəyərlərin mənimsənilməsində xalq ədəbiyyatının böyük rolu və əhəmiyyəti vardır. "Azərbaycan xalqına məxsus mənəvi dəyərlərin öyrənilməsində şifahi xalq yaradıcılığı nümunələri – nağıllar dastanlar, atalar sözləri, nəğmələr, nəsihətlər , bayatılar, aşıqların poetik irsi, lətifələr və s. çox qiymətli mənbələridr" (8, s. 14).

Azərbaycan dili dərslərində şagirdlərə vətənpərvərlik, humanizm, qonaqpərvərlik, ədalətlilik, şərəf və ləyaqət, xoş rəftar və davranış gö-

zəlliyi, intizamlılıq, əməksevərlik, təmizlik, əməyə hörmət, dinimizə və onun dəyərlərinə hörmət etmək, mərdlik və s. kimi milli-mənəvi hisslər aşılanır. Məhz Azərbaycan dili dərsləri bu baxımdan çox böyük imkanlara malikdir.

Fəxrlə deyə bilərik ki, biz bir xalq olaraq zamanın çətin sınaqlarından keçərək dilimizi, milliliyimizi, milli-mənəvi dəyərlərimizi qoruyub saxlamış və bu günlərimizə qədər gətirib çıxarmışıq. Dərin tarixi kökləri olan öz dilimiz, öz mədəniyyətimiz, öz tariximiz var. Bu gün 50 milyondan çox həmvətənimizin danışdığı bu dil dünyaya səs salan şairlər, ədəbiyyatçılar, alimlər, siyasətçilər, dahilər yetişdirib. Bu dil ilə ədəbiyyatımızı, mədəniyyətimizi, kimliyimizi tanıtmışıq, bu dil ilə müstəqilliyimizi, suverenliyimizi elan etmişik. Bu dil ilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş komandanımız İlham Əliyev torpaqlarımızın işğaldan azad olunmasını, düşmən üzərində qələbəmizi, zəfərimizi qədim mədəniyyət mərkəzi olan Şuşanın dirçəldilməsini bəyan etmişdir.

Bu dil müqəddəsdir, doğmadır anamız kimi, Vətənimiz kimi. Dilimiz fəxrimizdir, bizim səs bayrağımızdır. Himnimizdir, qələbəmizdir, sevgimzidir, anamızdır, vətənimizdir. Nəsimilər, Füzulilər, Xətailər, Zərdabilər, Vaqiflər, Vidadilər, Sabirlər, Müşfiqlərin dilidir – Azərbaycan dili, mənəvi sərvətimzidir.

Bu gün hər birimiz min illərboyu Qobustandan, Gəmiqayadan, Azıx mağarasından başalayan, təkmilləşərək davam edən, çətin və şərəfli yol keçərək bugünkü səviyyəyə gəlib çatan dilimizin saflığının qorunmasında əsl vətəndaş mövqeyi sərgiləməli, harada olmağımızdan asılı olmayaraq dilimizi qorumalı və unutmamalıyıq. Ölkə Prezidenti möhtərəm İlham Əliyevin dediyi kimi: “Bizi millət kimi qoruyub saxlayan da məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir”.

**Məqalənin aktuallığı.** Dilimizn saflığı uğrunda mübarizə bütün dövrlərdə olmuş, bu gün isə qlballaşma dövründə daha aktual hesab olunur. Avropanın bütün sahələrə təsiri olduği kimi dilimizə də mənəvi dəyərlərimizə də təsiri olduğundan mövzumuz aktual hesab edilir.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, ana dilimiz – Azərbaycan dilinin mənəvi tərbiyədə, vətənpərvərlik tərbiyəsində rolu şərh edilir, təhlil edilir.

Məqalənin praktik əhəmiyəti ondan ibarətdir ki, məqalədə şərh olunan materiallar müəllimlər üçün, tələbə şagirdlərin istiafdəsi üçün dəyərli bir mənbədir.

**Ədəbiyyat:**

1. Heydər Əliyev. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq/Azərbaycan qəz. Bakı, 1996, 6 fevral.
2. Heydər Əliyev. Azərbaycan Yazıçılarının X qurultayında nitq / Sadıqlı A.Ə. Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili. Bakı: Mütərcim 2011, - 180 səh.
3. Heydər Əliyev . Yeni dərs ilinin başlanması və bilik günü münasibətilə keçirilən təntənəli toplantıda nitq /
4. Əliyev İ.H. “Azərbaycan dilində latin qrafikasi ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı Bakı şəhəri,12 yanvar 2004 cü il / Xalq, 14 yanvar, 2004 cü il.
5. Əliyev İ.H. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Emin Əmrullayeviin Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbulunda çıxışı. 27 iyul 2020. www.president.az. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi
6. Sadıqlı, A.Ə. Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili / A.Ə. Sadıqlı A.Ə. -Bakı: Mütərcim, -2011. - 180 səh.
7. Hüseynzadə R.L. Ailə pedaqogikası: Dərslik / R.L. Hüseynzadə, L.Z. Allahverdiyeva. -Bakı: ADPU, -2016,.3-40 s.
8. Qasımova, L.N. Məktəblilərin miili mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən / L.N. Qasımova. -Bakı: Nurlan, -2004.

**E-mail**: prof.rufat@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **L.N. Qasımova,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub:** 10.06.2021